# IRAVAN TEACHERS' SEMINARY AND AZERBAIJANISM IDEOLOGY

**Gasim Hajiyev**

Institute of Caucasian Studies of ANAS,
Head of the Department of Armenian Studies, doctor of historical sciences,
professor of Azerbaijan University, academician of Turan Academy
E-mail: gasimh@mail.ru
https://orcid.org/0000-0002-6500-7890

**Abstract.** The article talks about the history of Iravan Teachers' Seminary. Iravan is one of the cities of Azerbaijan, founded in the Middle Ages in Western Azerbaijan (now Armenia). At the beginning of the 19th century, Armenians were resettled and settled in this region of Azerbaijan after the Gulustan and Turkmenchay treaties. Until the opening of the Iravan Teachers' Seminary, educational institutions have been operating in this region since the Middle Ages and long-term traditions have been created. In terms of the educational system, the European educational system was applied in the Iravan Teachers' Seminary, which was established at the end of the 19th century (1881). Although the imperial policy of the Russians in this region created comprehensive conditions for the flourishing of Armenians and Armenian nationalism, the formation, and development of this education was undoubtedly the result of the great interest in the education of the local people – Azerbaijani Turks. Azerbaijani Turks, as a nation capable of valuing science and culture, showed their activity whenever possible. It is noted that the spread of the Azerbaijani ideology of life-giving was closely connected with the activities of that seminary.

**Keywords:** Western Azerbaijan, Iravan Teachers' Seminary, Russian imperial political system, education, school, Azeri ideology.

**To cite this article:** Hajiyev G. (2022). Iravan Teachers' Seminary and azerbaijanism ideology. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 87-100.
**Article history:** received – 03.06.2022; accepted – 08.07.2022.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

**Qasım Hacıyev**

AMEA-nın Qafqazşünaslıq İnstitutu
Ermənişünaslıq şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, Azərbaycan Universitetinin professoru, Turan Akademiyasının akademiki
E-mail: gasimh@mail.ru
https://orcid.org/0000-0002-6500-7890

**Annotasiya.** Məqalədə İrəvan Müəllimlər Seminariyasının tarixindən bəhs olunur. İrəvan Qərbi Azərbaycanda (indiki Ermənistanın paytaxtı) orta əsrlərdə yaranmış Azərbaycan şəhərlərindən biridir. XIX əsrin əvvəllərində Gülüstan və Türkmənçay müqavilələrindən sonra Azərbaycanın bu bölgəsinə ermənilər köçürülüb məskunlaşdırılmışdır. İrəvan Müəllimlər Seminariyası açılana qədər – orta əsrlərdən etibarən bu regionda təhsil ocaqları fəaliyyət göstərmiş və zəngin təhsil mühiti yaranmışdır. XIX əsrin sonlarında (1881-ci il) yaranmış İrəvan Müəllimlər Seminariyasında Avropanın mütərəqqi təhsil ənənələri tədbiq olunurdu. Baxmayaraq ki, bu regionda rusların imperiya siyasəti ermənilərin, erməni millətçiliyinin çiçəklənməsinə hərtərəfli şərait yaradırdı, bu təhsilin formalaşması və inkişafı, heç şübhə yoxdur ki, yerli xalqın – Azərbaycan türklərinin təhsilə böyük marağından irəli gəlirdi. Azərbaycan türkləri elmi, mədəniyyəti dəyərləndirməyi bacaran xalq kimi, hər dəfə, imkan olduqca, öz fəallığını göstərirdi. Qeyd olunur ki, azərbaycançılıq ideologiyasının geniş vüsət alması da həmin seminariyanın fəaliyyəti ilə sıx bağlı olmuşdur.

**Açar sözlər:** Qərbi Azərbaycan, İrəvan Müəllimlər Seminariyası, rusların imperiya siyasəti, təhsil, məktəb, azərbaycançılıq ideologiyası.

**Məqaləyə istinad:** Hacıyev Q. (2022). İrəvan Müəllimlər Seminariyası və azərbaycançılıq ideologiyası. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 87-100.
**Məqalə tarixçəsi:** göndərilib – 03.06.2022; qəbul edilib – 08.07.2022.

## Giriş / Introduction

İrəvan şəhəri Qərbi Azərbaycanın (indi Ermənistan ərazisindədir) orta əsrlərdə yaranmış şəhərlərindən biridir. Bu bölgədə orta əsrlərdən etibarən, təhsil ocaqları yaradılmışdır. İrəvan Müəllimlər Seminariyası açılana qədər də Azərbaycanda məktəblər açılmış, fəaliyyət göstərmiş və uzunmüddətli təhsil ənənələri yaranmışdır. XIX əsrin sonlarında yaradılmış İrəvan Müəllimlər Seminariyası, təhsil sistemi baxımından, Avropa təhsil sisteminin tətbiqi ilə bağlı idisə, təhsilin formalaşması və inkişafı yerli xalqın – Azərbaycan türklərinin təhsilə marağından irəli gəlirdi. Baxmayaraq ki, rus imperiya siyasəti ermənilərin çiçəklənməsinə hərtərəfli şərait yaradırdı, yerli xalq olan Azərbaycan türkləri elmi, mədəniyyəti dəyərləndirməyi bacaran xalq kimi hər imkanda öz fəalliyyətini davam etdirirdi. Buna görə də Qafqaz regionunda təhsilli xalqlar sırasında Azərbaycan türklərinin xüsusi yeri var idi.

Seminariyanın mühüm xüsusiyyətlərindən biri də o idi ki, burada tələbələrin yiyələndikləri ixtisas və vərdişlərin müxtəlif fəaliyyət istiqamətləri mövcud idi. Bu ixtisaslara yiyələnən İrəvan Müəllimlər Seminariyası məzunlarının azərbaycançılıq ideologiyasının formalaşmasında böyük rolu olmuşdur. O zaman azərbaycançılıq, bir ideologiya olaraq, müxtəlif yollarla təbliğ olunurdu. Bu ideologiya ilə yetişən İrəvan ziyalıları sovetlər dövründə də öz ənənələrini qoruyub saxlamış, sonrakı nəsillərə ötürmüşdür. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının Qafqazın həyatında, xüsusilə Azərbaycan xalqının təhsil tarixində mühüm rolu olmuşdur.

## Əsas hissə / Main part

**Azərbaycanın İrəvan bölgəsində ənənəvi təhsil sisteminin yaranması və inkişafı.** Azərbaycanın digər bölgələrində mövcud olan təhsil sistemi ilə İrəvan bölgəsindəki təhsil sistemi eynilik təşkil edirdi ki, bu da orta əsrlərdən etibarən Şərq ölkələrinin təhsil sistemi əsasında formalaşdırılmışdı. Azərbaycan ərazisinin bir hissəsinin çar Rusiyası tərəfindən işğal olunmasından sonra da bu ənənəvi təhsil sistemi öz fəaliyyətini davam etdirmişdir. Avropa tipli təhsil müəssisələri yarandıqdan sonra isə bu sistemlərin yanaşı fəaliyyətləri bir müddət davam etmişdir. Şəhər və kəndlərin çoxunda məscidlərin nəzdində ənənəvi məktəblər fəaliyyət göstərirdi. Bu məktəblərdə müxtəlif yaşda oğlanlar (bəzi hallarda qızlar da) təhsil alırdılar [Azərbaycan tarixi., 2000].

İrəvan bölgəsində fəaliyyət göstərən ənənəvi müsəlman məktəbləri iki pilləli olmuşdur. Onlar mədrəsə və məktəblərdən ibarət idi. Aşağı pillə məktəb, yuxarı

pillə isə mədrəsə hesab edilirdi [Sbornik materialov dlya opisaniya mestnoctey i plemyon Kavkaza].

Din xadimləri də – mollalar və axundlar müəllimlik fəaliyyəti ilə məşğul olurdular. Maraqlı məsələlərdən biri də odur ki, dərs deyən müəllimlər cəmiyyətdə böyük hörmətə malik idilər [Sbornik materialov dlya opisaniya mestnoctey i plemyon Kavkaza].

Azərbaycanlı-türk əhali təhsilə ciddi yanaşırdı. Valideynlər müəllim tərəfindən təhsil prosesində yaxşı oxumayan uşaqlara qarşı cəza tədbirləri görülməsi ilə razılaşır, yaxşı təhsil alması üçün uşaqlarının müəllim tərəfindən cəzalandırılmasına təmkinlə yanaşırdılar [Sbornik materialov dlya opisaniya mestnoctey i plemyon Kavkaza].

İrəvan bölgəsində hər ay 20 gümüş qəpik məvacib müqabilində fərdi təhsillə məşğul olan müəllimlər də var idi. İ.Şopenin qeydlərində bir neçə tələbəyə fərdi şəkildə təhsil verilməsindən bəhs edilir [Şopen İ., 1852 ].

Müsəlman məktəblərində təhsil ərəb və fars dillərində aparılırdı. Bu məktəblərin ənənəvi tədris proqramları var idi. Mədrəsələrdə həm dini, həm də dünyəvi elmlər tədris edilirdi. Dərslər üç əsas sahəyə bölünür və hər bir sahə müxtəlif qollara ayrılırdı ki, bunların birincisi "Əl-ərəbiyyət" adlanırdı. 12 bölmədən ibarət olan bu sahənin 10 bölməsi ərəb dili qaydalarının, 1 bölməsi tarixin öyrənilməsi, 1 bölməsi isə "Quran"ın oxunması ilə bağlı idi. "Əl-şəriət" adlanan ikinci sahə 6 bölmədən ibarət idi. "Əl-həkimə" adlandırılan üçüncü sahə 5 hissəyə bölünürdü. Bu sahədə riyaziyyat, coğrafiya, tibb, fəlsəfə, məntiq və münəccimlik öyrənilirdi [Şopen İ., 1852].

Ənənəvi məktəblərdə tələbələrə əvvəlcə ərəb, fars və türk əlifbası, sonra isə "Quran" öyrədilirdi. Bununla yanaşı, tələbələr Nizaminin, Firdovsinin, Rudəkinin, Caminin, Hafizin və Sədinin şeirlərini öyrənirdilər. Onların sırasında şeir yazanlar da var idi [Şopen İ., 1852].

İrəvan xanlığında İrəvanın baş məscidinin nəzdindəki mədrəsədə 1836-cı ilin məlumatına görə, 100-ə qədər, 1850-ci ilin məlumatına görə isə 50 tələbə təhsil alırdı [Şopen İ., 1852 ].

Cənubi Qafqazda, o cümlədən İrəvan bölgəsində Rusiyanın işğalından sonra yeni Avropa tipli məktəblər yaradıldı. Bölgələrdə, 1829-cu ildə Cənubi Qafqaz məktəblərinin vəziyyəti haqqında "Əsasnamə"yə görə, Avropa tipli məktəblərdə rus dili və yerli dillərin, hesab fənlərinin tədrisi ilə bərabər, dini təhsil verilməsinə də şərait yaradıldı [Karaev E., 2018].

Bu təhsil ocaqlarında, əsasən zadəgan və məmur uşaqları dövlət qulluğuna hazırlanır, hakimiyyətə sadiq olan imtiyazlı təbəqələrin uşaqlarına savad verilir, həmçinin onları gimnaziyaya qəbul üçün hazırlayırdılar. Rus dilini bilən, dövlətə sadiq məmurlara olan ehtiyacı nəzərə alaraq, bu məktəblərdə təhsil pulsuz həyata

keçirilirdi. Çar hakimiyyət orqanları qəza məktəblərində Azərbaycan türkcəsinin tədrisinə razılıq vermişdi [Jurnal Ministerstva narodnoqo prosvesheniya (v 381 tomax), 1849].

1832-ci il, yanvar ayının 14-də İrəvan şəhərində ilk ikisinifli məktəb açıldı [Jurnal Ministerstva narodnoqo prosvesheniya (v 381 tomax), 1849]. Burada Azərbaycan türkləri ilə bərabər ermənilər, ruslar və b. təhsil alırdılar. Məktəbdə təhsil alanların əksəriyyəti imkanlı şəxslərin oğlanları idi. İrəvan qəza məktəbində 1834-cü ilin fevral ayına olan məlumata görə 37 şagird, 1836-cı ilin məlumatına görə 60 şagird təhsil alırdı. 1850-ci ildə isə bu qəza məktəbində 6 müəllim fəaliyyət göstərdiyi, 109 şagirdin təhsil aldığı qeyd edilmişdi. Məktəbdə kitabxana da fəaliyyət göstərirdi [Karaev E., 2018]. 1852-ci ilin məlumatına görə, bu qəza məktəblərində oxuyan şagirdlərdən 20 nəfəri Azərbaycan türkü, 115 nəfəri erməni, 11 nəfəri isə rus idi [Karaev E., 2018].

XIX əsrin 50-ci illərindən başlayaraq, qəza məktəblərinin müəllim heyətini Azərbaycan türklərindən ibarət məzunlar hesabına artırmışdılar. Bunun əsas səbəbi Azərbaycan ziyalılarının xalqın maariflənməsinə xüsusi maraq göstərmələri idi. Bu ziyalıların içərisində öz vəsaitləri hesabına məktəb açaraq türkcə təhsil verən müəllimlər var idi. 1836–1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856 –1885-ci illərdə Mirzə Ələkbər Elxanov uşaqları məktəblərə cəlb edir, onlara təhsil verirdilər [Məmmədov İ., 2003].

Qafqazda yeni tipli məktəblər, xüsusi rəhbərliyi olmayan qəza məktəbləri Tiflis gimnaziyasının direktoru vasitəsi ilə Gürcüstan baş hakiminə tabe edilmişdi [Jurnal Ministerstva narodnoqo prosvesheniya (v 381 tomax), 1849]. 1840-cı ildən qəza məktəbləri Cənubi Qafqaz məktəbləri Baş müfəttişliyinin, 1846-cı ilin yanvarından Qafqaz canişinliyinin tabeçiliyinə keçirildi. 1848-ci il dekabrın 18-də çar I Nikolayın imzası ilə "Qafqaz təhsil dairəsi" yaradılması haqqında [Jurnal Ministerstva narodnoqo prosvesheniya (v 381 tomax), 1849] sərəncama əsasən, İrəvan qəza məktəbi müvəqqəti olaraq Şamaxı-Dərbənd müdiriyyətinə tabe edildi. Naxçıvan və Yelizavetpol qəza məktəbləri də bu müdiriyyətə tabe idi [Jurnal Ministerstva narodnogo prosvesheniya (v 381 tomax), 1849]. Həmin təlimata əsasən, kəndli uşaqlarının dövlət məktəblərində təhsil alması qadağan olunurdu [Jurnal Ministerstva narodnoqo prosvesheniya (v 381 to max), 1849].

Çar hakimiyyəti orqanları 1850-ci il, yanvarın 1-də, məcburiyyət qarşısında qalaraq, qızlar üçün də məktəb açdı. Xeyriyyəçilərin hesabına saxlanılan bu "Müqəddəs Ripsime" adlı məktəbdə 21 şagird təhsil alırdı. Bunlardan 3-ü Azərbaycan türkü, 13-ü erməni, 5-i isə rus idi [Şopen İ., 1852].

**İrəvan Müəllimlər Seminariyasının açılması və fəaliyyəti.** XIX əsrin sonlarında İrəvanda Müəllimlər Seminariyasının açılması İrəvan şəhərinin Qafqazın mühüm təhsil mərkəzlərindən birinə çevirlməsinə səbəb oldu.

1873-cü il, noyabrın 22-də qəbul edilmiş "Qafqaz təhsil dairəsinin təhsil müəssisələrinə gimnaziya, progimnaziya və real məktəblərin ümumi nizamnaməsinin tətbiqi haqqında Qanun"un əsas məqsədləri var idi. Burada, ilk növbədə, Qafqaz təhsil dairəsinin məktəblərini Rusiya imperiyasının məktəblərinə uyğunlaşdırmaq, Qafqaz və Cənubi Qafqazın hər bir quberniya və vilayətində xəzinə hesabına kənd məktəbi açmaq (üçüncü sinfə qədər), kənd məktəbləri müəllimlərinə ibtidai məktəb müəllimi hüququ vermək, yerli məktəblərə müəllim hazırlamaq üçün Qafqaz Müəllimlər Seminariyasını təsis etmək, bütün məktəblərdə təhsili rus dilində tətbiq etmək nəzərdə tutulurdu.

Bu zaman Qafqaz təhsil dairəsindəki klassik gimnaziyalar *gimnaziya*, real gimnaziyalar isə *real məktəblər* adlandırılırdı. Ana dilində olan dərs saatlarının miqdarını Qafqaz canişini təyin edirdi. Həmçinin şagirdlər ana dilinin tədrisi üçün əlavə vəsait ödəyirdilər. 1873-cü il, noyabrın 22-də qəbul olunmuş "Cənubi Qafqazda tədris hissəsinin təşkili haqqında" Qanuna əsasən, Qafqazda xalq maarifi sistemi imperiya daxilindəki əsasnamələrlə idarə edilməyə başladı. Bundan sonra, Qafqazda, o cümlədən Azərbaycan məktəblərində yeni idarə üsulu tətbiq olunmağa başlandı. Əvvəllər yerli dillərin tədrisinə, az da olsa, üstünlük verilirdi, lakin bu əsasnamədən sonra rus dilinin tədrisi daha da gücləndirildi. Qafqaz canişininə Qafqaz təhsil dairəsinə daxil olan təhsil müəssisələrində rus dilinin tam olaraq mənimsənilməsi üçün bütün mümkün tədbirlərdən istifadə etmək hüququ verildi.

Çarizmin Qafqazda müsəlmanların maarif sistemini kökündən dəyişmək istəyi, onun Azərbaycan türklərinin təhsil almasına mane olan, milli hüquqlarını məhv edən siyasəti, dilimizin Azərbaycan dili əvəzinə "tatar dili" adlandırılması yürüdülən antiazərbaycan siyasətinin nəticəsi idi.

Azərbaycanlıların təhsil almasının qarşısını yalnız əsasnamələrlə deyil, digər yollarla da almağa çalışırdılar. Təhsil müəssələrində olan ümumi vəziyyəti təsəvvür etmək üçün o zaman Şuşada təhsil alan Əhməd Ağaoğlunun rus gimnaziyasında baş verənlərə dair qeydlərini xatırlatmaq yerinə düşərdi: "Tənəffüslərdə biz, beş türk çocuğu cəld tərpənib arxamızı divara dirəməyi qənimət bilirdik. Yüzlərlə erməni çocuğu qəflətən üstümüzə hücum edirdi, biri başımızdan papaqlarımızı alıb atırdı. Qalanları dörd-beş altun qiyməti olan, buxara dərisindən tikilmiş papaqları təpiklə, kos kimi ora-bura vururdular. Bəziləri qiymətli, əksərən dəvə yunundan toxunmuş pencəklərimizin ətəklərindən yapışır, o yan-bu yana çəkir, parçalayır, dartıb tikişlərini sökürdülər. Müqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz, təpik altında bizi əzirdilər. Bəzən gizlində sözü bir yerə qoyub, üzərimizə böhtan atır, hamısı üzümüzə şahid durur, bizə haqsız yerə cəza verdirirdilər. Dostlarımızın çoxu dözə bilmədi. Məktəbi tərk etdilər. Son sinfə qədər türklərdən yalnız mən tab gətirə bildim" [Ağaoğlu Ə., 2019].

Çarizmin siyasətinə müvafiq olaraq, ənənəvi dini məktəblər 1848-ci və 1853-cü illərin məktəb əsasnamələri ilə məktəblər müdiriyyətinə tabe edildi. 1874-cü il, noyabrın 20-də qəbul edilən qanuna görə, məktəb və mədrəsələr Xalq məktəbləri müdiriyyəti-müfəttişliyinin nəzarətinə verilməli, müfəttiş fəaliyyətdə olan məktəb və mədrəsələrdə əhalinin hesabına rus dili siniflərinin açılmasına sərəncam verməli idi. Yeni məktəb və mədrəsələrin açılmasına yalnız əhalinin razılığı ilə, rus dili müəlliminin olması şərti ilə icazə verilir, məktəb və mədrəsələrdə təlimin istiqamətinə ciddi nəzarət edilirdi. Dərsliklər mütəmadi yoxlanılır, xarici ölkələrdən gətirilən dərsliklərə qadağa qoyulur, tədris binalarının ümumi tələblərə cavab verməsinə nəzarət edilirdi. 1893-cü il qanunu ilə bu məktəblər qubernatorların nəzarətinə verildi.

Beləliklə, çarizmin maarif sahəsində siyasəti, əslində, təcrübədə savadlı müəllim kadrlarının deyil, ona xidmət edəcək "sadiq qullar"ın hazırlanmasına hesablanmışdı. F.Köçərlinin dediyi kimi, bununla da "çarizm şagirdlərdən müəllimlik ruhunu çıxardıb, çinovnik ruhu daxil etmək, bununla da mütiçinovniklər yaratmaq siyasəti yeridirdi".

Şimali Azərbaycan işğal edildikdən sonra çarizm ərazinin idarəçiliyinə cəlb olunmuş rus məmurlar ordusunun uşaqları üçün rusdilli məktəblər açmaqla, həmin məktəblərə yerli əhalidən olan imkanlı şəxslərin uşaqlarını cəlb edib, onları öz tərəfinə çəkməklə lazımi hallarda onların xidmətindən bəhrələnirdi. Həmçinin yeni nəsli ruslaşdırmaq niyyəti ilə təcrübə xarakterli bir sıra layihələr həyata keçirilsə də, çarizmin "sadiq müsəlman ruhaniliyi" fikri xülya olaraq qaldı. Tarixi köklərə malik ənənəvi dini məktəblər öz mahiyyətini qoruyaraq daha da inkişaf etdi.

Rus çarı II Aleksandrın 1880-cı il, 20 oktyabr tarixli fərmanı ilə təsis edilmiş İrəvan Müəllimlər Seminariyası 1881-ci il, noyabrın 8-də rəsmən fəaliyyətə başlamışdı.

İrəvan Müəllimlər Seminariyasında da ilk vaxtlardan rusların "tatar dili" adlandırdıqları Azərbaycan dili və islam dini qaydaları – şəriət dərslərinin tədris edilməsinə başlanmışdır. Rusiyanın hakim dairələri yaxşı bilirdilər ki, İrəvan mahalı əsrlər boyu burada yaşamış Azərbaycan türklərinin ata-baba yurdlarıdır. Sonradan bu regiona köçürülüb məskunlaşdırılan ermənilərdən fərqli olaraq, bu regionun yerli əhalisinin hələ də türk-müsəlmanlar olduğunu unutmamışdılar.

Xalqımızın tarixində mütərəqqi hallardan biri də dünyəvi təhsilin meydana çıxması idi. Bu baxımdan diqqətəlayiq tədbirlərdən biri də dünyəvi təhsil ocaqlarının yaradılması idi. Bu təhsil müəssisələri sırasında İrəvan Müəllimlər Seminariyasının xüsusi yeri var idi. Seminariyanın açılması üçün rus çarı III Aleksandr müsəlmanlar üçün şəriətin tədrisinə diqqətlə yanaşmış, 1881-ci il, 30 sentyabrda 500 rubl vəsait ayrılması haqqında fərman vermişdi [Doklad pope-

chitelya Kavkazskogo uchebnogo okruga ob otpuske sredstv Bakinskoy jenskoy uchitelskoy seminarii na vvedenie prepodavaniya tatarskogo (azerbaydzhanskoqo – Q.H.) yazıka i musulmanskoqo veroucheniya, 2017]. Seminariyaya islam dini üzrə hörmətli din adamları işə cəlb edilmişdilər ki, bunların sırasında ilk ilahiyyat müəllimi – şəriət dərslərini keçən Axund Məmmədbağır Qazızadə idi. O, həm də Azərbaycan dili dərsi keçirdi [Kavkazskiy kalendar na 1881–1917 gg, na 1883 g., adr.-kal.].

Seminariyaya 15–18 yaş arasında olan oğlanlar qəbul edilirdi. Öz hesabına təhsil alanlar ilkin olaraq 30 rubl, sonra isə hər tədris ili üçün 180 rubl vəsait ödəyirdilər [Jurnal Ministerstva narodnoqo prosvesheniya (v 381 tomax), na 1910, otd. sprav]. Fəaliyyətə başladığı birinci tədris ilində seminariyaya 42 tələbə qəbul edilmişdi. Bu tələbələrdən hazırlıq sinfi və 1-ci sinif komplektləşdirilmişdi. 1882-ci ildə 2-ci sinif açılmış, tələbələrin sayı artaraq 54 nəfərə çatmışdı. 1883-cü ildə isə 3-cü sinif də açıldı və tələbələrin sayı 69 nəfərə çatdı. Seminariyada ilk vaxtdan ilahiyyat fənnini və Azərbaycan (türk) dilini, yuxarıda da qeyd etdiyimiz kimi, axund Məmmədbağır Qazızadə tədris etməyə başlamışdı [Vsepoddanneyshey otchot papyatiletie upravleniya Kavkazom general-adyutanta I.I.Vorontsova-Dashkova, 1910].

İrəvan Müəllimlər Seminariyası yaradıldığı vaxt yerli xalqlardan məktəb təhsili olmayan uşaqları seminariyada təhsil almağa hazırlamaq üçün onun nəzdində nümunəvi ibtidai məktəb yaradılmışdı.

1888-ci ilə aid məlumata görə, seminariyanın nəzdindəki ibtidai məktəbdə 66 şagird oxuyurdu ki, onların 10 nəfəri azərbaycanlı, 8 nəfəri rus, 4 nəfəri gürcü, 44 nəfəri erməni idi [Karaev E., 2018].

XIX əsrin sonunda İrəvan quberniyası əhalisinin yarıdan çoxunu Azərbaycan türklərinin təşkil etməsinə baxmayaraq, həmin dövrdə İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlıların sayı çox az idi. İrəvan gimnaziyasında və ümumiyyətlə, rus dilində təhsil verən bütün məktəblərdə oxuyan azərbaycanlı uşaqların sayı hələ də az olaraq qalırdı. Bunun başlıca səbəbi yerli azərbaycanlı əhalinin Rusiya hakim dairələrinin yeritdiyi müstəmləkəçi ruslaşdırma siyasətinə qarşı çıxması idi. Digər mühüm səbəb isə dini amil idi. Müsəlman kəndlərində, xristian yaşayış məntəqələrində olduğu kimi, rus dilində təhsil verən məktəb açmaq cəhdi çox vaxt müsəlman din xadimlərinin kəskin müqaviməti ilə üzləşirdi. Əhali üzərində güclü təsiri olan mollalar övladlarını hökumətin açdığı rus məktəblərinə qoymaması üçün əhalini qorxudurdular ki, orada uşaqlar xristianlaşmağa məruz qalacaq, öz dini etiqadlarından uzaqlaşacaqlar [Obzor Erivanskoy gubernii za 1883 – 1914 gg., za 1891 q]. Ona görə də, əksər azərbaycanlı ailələri uşaqlarını, keçmişdə olduğu kimi, mollaxana və mədrəsələrə göndərməkdə davam edirdilər. Bu dini məktəblərdə dərslər ənənəvi qaydada keçirilirdi. Yalnız

İrəvan şəhərində baş məscidin nəzdindəki mədrəsədə ənənəvi fənlərdən əlavə, rus dili və hesab fənləri tədris edilirdi [Obzor Erivanskoy qubernii za 1883 – 1914 gg., za 1891 g].

İrəvan Müəllimlər Seminariyasının məzunu Hüseynəlibəy Rüstəmbəyov da 1895-ci il, sentyabrın 19-da Şuşada 3-cü dərəcəli xüsusi məktəb açmışdı, lakin bir il keçməmiş məktəbin fəaliyyəti dayandırıldı. Məktəbin fəaliyyətinin dayanması H.Rüstəmbəyovun Şamaxı qəzasının Lahıc kənd məktəbinə göndərilməsi ilə əlaqədar baş vermişdi. Maraqlıdır ki, bu tipli məktəblərdə təhsil alan şagirdlər iki il ərzində Azərbaycan və rus dillərini mükəmməl öyrənirdilər. Onlar sonra müxtəlif bölgələrdə fəaliyyət göstərməklə xalqın maariflənməsinə xidmət edirdilər.

İrəvan Müəllimlər Seminariyasında Rəhim Xəlilov 1901-ci ilə kimi Azərbaycan dili fənnini tədris etmişdir [Kavkazskiy kalendar na 1881–1917 gg, na 1903 g., adr.-kal]. 1902–1904-cü illərdə seminariyada bu fənni Rəşid bəy Şahtaxtinski [Kavkazskiy kalendar na 1881–1917 gg, na 1904 g., adr-kal., s. 406], 1905–1907-ci illərdə Həmid bəy Şahtaxtinski [Kavkazskiy kalendar na 1881–1917 gg, na 1903 g., adr.-kal.], 1908–1916-cı illərdə isə Mirzə Cabbar Məmmədov [Kavkazskiy kalendar na 1881–1917 gg, na 1910 g] tədris etmişdilər. Seminariyada ilahiyyət fənnini islam (şəriət) üzrə tədris edən bütün bu müddət ərzində axund Məmmədbağır Qazızadə dəyişilməz olaraq qalmışdı.

1905-ci ildə İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlı gənclərin sayı əhəmiyyətli dərəcədə artmışdı. Bu da həmin dövrdə azərbaycanlı tələbələrin seminariyada təhsil almalarını stimullaşdırmaq üçün onların təhsil xərclərinin dövlət tərəfindən ödənilməsi ilə əlaqədar idi.

Qafqaz Tədris Dairəsinin müdiri 1905-ci ildə Qafqaz canişini qarşısında məsələ qaldırmışdı ki, İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlı tələbələr üçün 20 rubl təqaüd təsis edilsin. Həmin müraciətdə İrəvan Müəllimlər Seminariyasında tikinti işləri üçün 30 min rubl ayrılması da xahiş edilmişdi [Otchet popechitelya Kavkazskogo Uchebnogo Okruga za 1905 g].

Qafqaz Tədris Dairəsi müdirinin 1905-ci il üçün hesabatından bəlli olur ki, həmin il baş verən qarışıqlıqlar, xüsusən erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı törətdikləri qətl və qarətlər, İrəvan şəhərində baş verən toqquşmalar seminariyada tədris prosesinə ciddi təsir göstərmişdi [Otchet popechitelya Kavkazskogo Uchebnogo Okruga za 1905 g, 1905]. Seminariyada çalışan azərbaycanlı müəllimlərin və təhsil alan azərbaycanlı tələbələrin təhlükəsizliyi üçün ciddi təhdid yarandığına görə, bir müddət dərslər dayandırılmışdı. Hətta azərbaycanlı valideynlər seminariyanın nəzdindəki ibtidai məktəbə uşaqlarını buraxmamışdılar [Otchet popechitelya Kavkazskogo Uchebnogo Okruga za 1905 g].

XX əsrin ilk illərində İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbay-

canlıların sayı yenə də az olaraq qalırdı. Bu hal həmin dövrdə Azərbaycan cəmiyyətinin qabaqcıl nümayəndələrini çox ciddi şəkildə narahat edirdi. İcbari ibtidai təhsil tələbini irəli sürən ziyalılarımız yaxşı bilirdilər ki, bu problemin həlli üçün daha çox sayda ibtidai məktəb müəlliminə ehtiyac var. Onlar bu ağır vəziyyətdən müxtəlif çıxış yolları təklif edirdilər. İrəvan quberniyasının 1908-ci il üzrə şərhində xüsusi qeyd edilmişdi ki, quberniyada ibtidai təhsili inkişaf etdirmək – yeni məktəblər açmaq üçün yaxşı hazırlıqlı müəllimlər çatışmır. Təəssüflə bildirilirdi ki, İrəvan Müəllimlər Seminariyası bu boşluğu doldurmaq iqtidarında deyildir. Son iki ildə bu seminariya yalnız 2 müəllim hazırlamışdır [Obzor Erivanskoy gubernii za 1882–1914 gg., za 1908 g].

Qafqaz canişini İ.Vorontsov-Dashkova da həmin dövrdə bütövlükdə Qafqaz regionunda tatar (azərbaycanlı – Q.H.) və dağlılardan müəllim hazırlanması sahəsində ciddi sıxıntılar olduğunu qeyd etmişdi. O, 1910-cu ildə çar II Nikolaya ünvanladığı öz beşillik idarəçilik dövrü haqqında hesabatında bildirmişdi ki, bu sahədə dönüşə nail olmaq üçün azərbaycanlılar və dağlılardan müəllim hazırlanmasından ötrü İrəvan Müəllimlər Seminariyasında 20 rubl təqaüd təsis edilmişdi. Həmçinin Yelizavetpolda və Temirxan-Şurada daimi pedaqoji kurslar təşkil edilmişdi. Müəllimlər seminariyalarında oxuyan müsəlman tələbələr üçün təqaüdlərin sayı artırılmışdı [Vsepoddanneyshiy otchot za pyatiletie upravleniya Kavkazom general-adyutan ta grafa I.I.Vorontsova-Dashkova (soch. grafa Vorontsova-Dashkova., 1910]. 1910-cu ildə bütün Qafqaz üzrə 1 müəllim institutu, 7 müəllim seminariyası və 10 pedaqoji sinifdə 763 nəfər (697 kişi və 66 qadın) xüsusi pedaqoji təhsil alırdı. Onlardan 367 nəfəri rus, 128 nəfəri gürcü, 62 nəfəri azərbaycanlı, 48 nəfəri erməni, 18 nəfəri dağlı, 69 nəfəri digər xalqların nümayəndələri idi [Vsepoddanneyshiy otchot za pyatiletie upravleniya Kavkazom general-adyutanta grafa I.I.Vorontsova-Dashkova (soch. grafa Vorontsova-Dashkova., 1910].

**Azərbaycançılıq ideologiyasının formalaşmasında İrəvan Müəllimlər Seminariyasının rolu.** 1915-ci ildə İrəvan Müəllimlər Seminariyasında təhsil alan 117 nəfər tələbənin 22 nəfəri azərbaycanlı idi. XX əsrin ikinci onilliyində İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlıların sayında əhəmiyyətli artım nəzərə çarpırdı. Bu, azərbaycanlı tələbələr üçün xəzinə hesabına təqaüdlərin ayrılması ilə birbaşa bağlı idi. Müqayisə üçün qeyd edək ki, 1915-ci ildə Qoridə yerləşən Cənubi Qafqaz Müəllimlər Seminariyasında 138 nəfər tələbə oxuyurdu. Onların 52 nəfəri azərbaycanlı idi. Həmin il Gəncə Müəllimlər Seminariyasında 64 nəfər tələbə təhsil alırdı ki, onların 9 nəfəri azərbaycanlı idi [Kavkazskiy kalendar na 1881–1917 gg, na 1917 g].

O zaman azərbaycançılıq, bir ideya olaraq, müxtəlif yollarla təbliğ olunurdu. Azərbaycançılıq ideyasının əsasını, ilk növbədə, vətəndaşlığın təşkil etdiyini

nəzərə alaraq, deyə bilərik ki, İrəvan Müəllimlər Seminariyasında təhsil alanlar vətəninə bağlı insanlar idi. Bunu həmin seminariyanı bitirənlərin sonrakı fəaliyyətləri sübut edir. Bu baxımdan XIX əsrin sonu – XX əsrin ilk onilliklərində İrəvan Müəllimlər Seminariyası Cənubi Qafqazın çox mühüm təhsil ocağı kimi tanınır. Seminariyanı bitirən gənclər müxtəlif bölgələrdə məktəb müəllimi kimi çalışaraq, gənc nəslin maariflənməsinə böyük töhfələr vermişlər. Seminariyanın məzunu olan gənc müəllimlər pedaqoji fəaliyyətlərinə ya yerlərdə yeni ibtidai məktəblər açaraq başlayır, ya da mövcud ibtidai kənd məktəblərində müəllimlik edərək xalq kütlələri arasında maarifin və elmi biliklərin yayılması, kütləvi savadsızlığın aradan qaldırılması işində yaxından iştirak edirdilər. Onlar, həmçinin işlədikləri bölgələrin mədəni həyatında fəal iştirak edir, həmin yerin tarixi, adət-ənənələri, folkloru haqqında materiallar toplayaraq, dövri mətbuatda maraqlı məqalələrlə çıxış edirdilər.

Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənələrdir ki, seminariyanın məzunları bu sahədə də fəal iştirak edirdilər. Demək olar ki, azərbaycançılıq ideologiyası XIX əsrin sonu — XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşmış və bir əsr ərzində davamlı təkamül yolu keçmişdir. Azərbaycançılığın xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemi olduğu təsdiqlənir. Bu fəaliyyət nəticəsində sonralar Azərbaycanın gələcək taleyini düşünən dövlət xadimləri və ziyalılar yetişdi ki, onların fəaliyyəti ilə uğurlu, gələcəyə aparan, həyati tələbatlara uyğun inkişaf yolu təmin olundu.

XX əsrin 60–70-ci illərində Azərbaycanda müxtəlif ixtisaslar üzrə təhsil alan milli kadrların artmasında ittifaq ölkələrinin aparıcı təhsil müəssisələrində təhsillərini davam etdirərək Azərbaycana qayıdan peşəkar mütəxəssislər mühüm rol oynadılar.

Məlumdur ki, azərbaycançılıq müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət yaratmaq uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyası olmuşdur. Onun əsasında Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır.

Azərbaycançılıq ideyası müstəqil Azərbaycan dövlətinin yenidən bərpa olunması yolunda, müasir Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyasının əsasının qoyulması və inkişafında böyük rol oynamışdır.

## Nəticə / Conclusion

Azərbaycan xalqının tarixində və mədəni inkişafında mühüm rol oynayan xüsusiyyətlərdən biri də elmə, təhsilə göstərilən maraqdır. Tədqiqatlar göstərir ki, xalqın sahib olduğu mədəni irs tariximizi daha da zənginləşdirmişdir. Onu da qeyd etmək lazımdır ki, zaman-zaman baş verən mürəkkəb prosseslər davam etsə də, yaradılan mədəniyyət nailiyyətləri, təhsillə bağlı yeniliklər xalqın taleyində mühüm rol oynamışdır. Müəyyən dövrlərdə müharibə və dağıntılar nəticəsində elm və təhsillə bağlı inkişaf yollarında yaranan çətinliklər, tədris müəssisələrinin məqsədyönlü şəkildə bağlanması və qiymətli bilik mənbəyi olan kitabxanaların məhv edilməsi, əlifbanın yerli-yersiz, həm də tez-tez dəyişdirilməsi təhsilin inkişafına öz mənfi təsirini göstərmişdir.

Dünyada baş verən iqtisadi və mədəni yüksəlişin başlandığı dövrdə elm və texnikanın vəhdət şəklində yeni inkişaf dövrünə qədəm qoyması ilə yanaşı, yeni təhsil sisteminin yaranmasına və genişləndirilməsinə də maraq artmışdır. Müxtəlif tendensiyalı məktəblər yaradılmış, ənənəvi təhsil sistemini əvəz edən yeni təhsil sistemi formalaşmışdır. Belə ki, Avropanın bir hissəsi olan Rusiyada yeni təhsil formaları yarandıqca, imperiyanın əyalətlərində də təhsilə ehtiyac hiss olunmuşdur. Böyük bir imperiyanın saxlanması və idarə edilməsi barədə düşünən çarizm yeni tipli məktəblər açmış, dövlətə xidmət edən məmurlar yetişdirmək üçün müxtəlif növ tədris müəssisələri yaratmışdır. Bu tip məktəblər və XIX əsrin sonlarında Azərbaycanın İrəvan bölgəsində İrəvan Müəllimlər Seminariyasının yaradılması da bu zərurətdən irəli gəlmişdir. Seminariyanın mühüm təhsil mərkəzlərindən birinə çevrilməsi yeni ziyalılar nəslinin formalaşmasında və azərbaycançılıq ideologiyasının inkişafında böyük rol oynamışdır.

**Məqalənin aktuallığı.** Ermənistan ərazisində fəaliyyət göstərən tarixi abidələrimizdən biri olan İrəvan Müəllimlər Seminariyası, tarixin səhifələrindən silinmiş maarif ocaqlarımızdan idi. İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev 29 dekabr, 2021-ci il tarixli sərəncamı imzalamışdır. Bu sərəncamla bağlı bir çox tədbirlər həyata keçirilir. Məqalənin aktuallığı da buradan qaynaqlanır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə Azərbaycanın təhsil tarixində İrəvan Müəllimlər Seminariyasının rolu, seminariya məzunları tərəfindən azərbaycançılıq ideologiyasının araşdırılması, onun qoruyub saxlanması və yeni nəslə çatdırılması yolları araşdırılır. Qeyd olunur ki, azərbaycançılıq – milli ideologiya kimi, Azərbaycan Respublikası Konstitusiyasının əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına, milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir. İrəvan Müəllimlər Semi-

nariyasının məzunları bu amalların yerinə yetirilməsini ləyaqətlə həyata keçirmişlər və bu, məqalədə öz təsdiqini tapır.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, azərbaycançılıq ideyası müstəqil Azərbaycan dövlətinin yenidən bərpa olunması yolunda mühüm rol oynadığı kimi, müasir Azərbaycan Respublikasının inkişafı və möhkəmləndirilməsində, dünya birliyinə inteqrasiyasının ideya əsaslarının gücləndirilməsində, yaranmış ənənələrin geniş şəkildə öyrənilməsində və təbliğində faydalı ola bilər. Bu barədə məqalədə müəllim və tələbələrə, oxuculara zəngin tarixi faktlar verilir və onlar bu faktlardan öz fəaliyyətlərində istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan tarixi (2000). IV cild, (7 cilddə). Bakı, "Elm", 606 s.
2. Ağaoğlu Ə. (2019). Xatirələr. Bakı, "Teas Press", 216 s.
3. Məmmədov İ. (2003). Tariximiz, torpağımız, taleyimiz. Bakı, "Adiloğlu", 700 s.
4. Vsepoddanneyshiy otchet za pyatiletiye upravleniya Kavkazom general-adyutanta grafa I.I.Vorontsova-Dashkova (soch. grafa Vorontsova-Dashkova). (1910). SPb.: Gos.tip., 60 s. 2, s. 47
5. Karaev E. (2018). Iz istorii kulturi Erivanskogo regiona v kontse XVII – v seredine XIX veka (obrazovanie, literatura, muzika, tantsı) // "Pyatıe Vserossiyskie (s mejdunarodnım uchastiem) istoriko-etnoqraficheskiye chteniya, posvyashenniye pamyati professora Magomedova Rasula Magomedovicha". Maxachkala. Sbornik statey, ch.1.. s.199-210.
6. Doklad popechitel'ya Kavkazskogo uchebnogo okruga ob otpuske sredstv Bakinskoy jenskoy uchitel'skoy seminarii na vvedeniye prepodavaniya tatarskogo yazıka i musulmanskogo veroucheniya . (22 fevralya 1917) / PQİA, f. 1276 (Fond Soveta Ministrov (1905–1917), op. 19, d.. 1369, L.1-3. 3, L.2
7. Jurnal Ministerstva narodnogo prosvesheniya [v 381 tomax] (1849) – SPb: "Imperatorskiy Akademii Nauk", ch.LXI, otd.1, s. 23-68.
8. Kavkazskiy kalendar na 1881-1917 gg. Tiflis: Tipografiya Kantselyariya Namestnika na Kavkaze, 1882–1916 na 1883 g., adr.-kal.
9. Obzor Erivanskoy gubernii za 1883–1914 gg. Erivan: Tip. Erivan. gub. pravleniya, 1884–1915, 5, za 1888 g., s.131
10. Otchet popechitelya Kavkazskogo Uchebnogo Okruga za 1905 q. (1906). Tiflis: "Tipografiya kantselyarii namestnika na Kavkaze ".

11. Rustamov F. (2022). Irevanskaya uchitel'skaya seminariya – 140. https://azertag. az/ru/xeber.
12. Sbornik materialov dlya opisaniya mestnostey I plemen Kavkaza. (v 82 t. i 4 dop.). (1881) Tiflis : “Izd.vo Upr. Kavkaz. Ucheb. Okruga ”, Vipusk 1.
13. Shopen I.I. Istoricheskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v epoxu yeyo prisoyedineniya k Possiyskoy imperii (1852). I.Shopen. SPb.: Tipografiya “Imperatorskoy Akad. Nauk.. – 1232 s., s..902